# Tariximizin qurtuluş zirvəsi - 15 İyun 1993-cü il...

**Masallı şəhərinin Heydər Əliyev Mərkəzində 15 İyun Milli Qurtuluş Gününün 26-cı ildönümünə həsr olunmuş "Tariximizin qurtuluş zirvəsi" mövzusunda konfrans keçirildi.**

Əvvəlcə tədbir iştirakçıları ümummilli lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzərək dahi şəxsiyyətin əziz xatirəsini ehtiramla anıblar.

Konfransı giriş sözü ilə açan Masallı Rayon İcra Hakimiyyətinin başçısı cənab Rafil Hüseynov rayon sakinlərini Milli Qurtuluş Günü bayramı münasibətilə təbrik edərək, ümummilli lider Heydər Əliyevin qayıdışı ilə başlayan 15 İyun tarixi, Azərbaycan rtarixində yeni səhifələr açdığını bildirdi. Natiq dedi: "1991-ci ildə Azərbaycan yenidən müstəqilliyini bərpa etmişdi, ancaq ölkəmiz çox təlatümlü, gələcək üçün təhlükə yaradan proseslərlə üz-üzə qalmışdı. O zamankı hakimiyyət ölkədə sabitliyi, əmin-amanlığı təmin edə bilməmişdi, ölkədə qeyri-sabitlik hökm sürürdü, iqtisadiyyat tənəzzül dövrünü yaşayırdı, xarici siyasətdə uğursuzluqların nəticəsində Azərbaycanın izolyasiyaya düşməsi təhlükəsi yaranırdı, erməni təcavüzü nəticəsində Azərbaycan ərazilərini itirirdi. Bütün sahələrdə ciddi böhran yaşanırdı.

Təbii ki, Azərbaycan əhalisi ölkənin gələcəyini görür və bu proseslərdən narahatlığını ifadə edirdi. Xalq anlayırdı ki, ölkəni bu vəziyyətdən yalnız Heydər Əliyev qurtara bilər və ona görə də Heydər Əliyevi Bakıya dəvət etdilər. Heydər Əliyev 1993-cü ilin iyunun 9-da Bakıya gəldi, iyunun 15-də parlamentin sədri seçildi. Bununla Azərbaycanda sabitliyin təmin olunması istiqamətində addımlar atıldı, ilk növbədə sabitlik bərpa edildi, ölkənin ərazilərinin itirilməsi qarşısına sədd çəkildi, iqtisadi sahədə isə tənəzzülün qarşısı alındı və beləliklə, insanların Heydər Əliyevin qayıdışından gözlədikləri həyata keçdi. Heydər Əliyev qayıdışından sonra Azərbaycanı bugünkü inkişafa gətirib çıxaran uğurlu strategiya həyata keçirməyə başladı". Masallı Dövlət Regional Kollecinin direktoru, "Tərəqqi" medallı Vidadi Nəzərov məruzəsində bildirib ki, bu günlərdə respublikamızın hər bir yerində qədirbilən xalqımızla birgə, bizə dost-qardaş olan xalqlar, ölkələr də dövlətçilik tariximizin şanli bir səhifəsini-Milli Qurtuluş Gününü bayram edirlər. Milli Qurtuluş Günü xalqımızın taleyində özünəməxsus, əvəzolunmaz, müqayisəyə gəlməz tarixi bir hadisədir. Bu gün, uzun illər zülmətə və ümidsizliyə qərq olmuş bir məmləkətə Günəşin doğduğu, inamın cücərib boy





atdığı bir gündür. Bu gün, Uca Tanrının Azərbaycan xalqına və onun dövlətinə səadət, sevinc və xoşbəxtlik dolu əbədi bəxş etdiyi azadlıq, müstəqillik adlı nakam xəyallarının yenidən gerçəkliyə qovuşduğu bir gündür. Bu gün, Müstəqil Azərbaycan dövlətinin dünyaya yenidən gəldiyi gündür. Milli Qurtuluş günü, bu günə kimi qazandığımız nailiyyətlərimizin, eləcə də min illərə, əbədiliyə səslənən xoşbəxt gələcəyimizin anası-xeyir duaçısı olan gündür. Bu gün, bütün şərəfli ömrünü Azərbaycan dövlətinin müstəqilliyinin dönməzliyinə və əbədiliyinə həsr etmiş, xalqımızın Ümummilli lideri Heydər Əlirza oğlu Əliyevin 15 iyun 1993-cü ildə hakimiyyətə yenidən qayıdışı ilə tarixə çevrilən bir zamandır.

Tədbirdə çıxış edən Yeni Azərbaycan Partiyasının veteran üzvü Əfrail Fərziyev, Xırmandalı kənd tam orta məktəbin direktoru Kamal Təhməzov, Böyük Xocavar kənd məscidinin dini icmasının sədri Əliəşrəf Zeynalov, Masallı "Asan xidmət"in vətəndaşların qəbulu işinin təşkili sektorunun baş məsləhətçisi Gülgün Cahangirova və başqaları o dövrün tarixi hadisələrindən, Azərbaycanın bu gün əldə etdiyi nailiyyətlərdən danışdılar. Natiqlər tarixi faktlara söykənərək qeyd etdilər ki, məhz bu tarixi qayıdış Azərbaycanı siyasi oyunlardan, daxili çəkişmələrdən, parçalanmaqdan, vətəndaş müharibəsindən xilas etdi. Müstəqil dövlət quruculuğunun, iqtisadi islahatların, ölkənin gələcəyi üçün böyük əhəmiyyəti olan neft müqavilələrinin təməli qoyuldu. Yekun nitqi ilə tədbiri yekunlaşdıran Masallı Rayon İcra Hakimiyyətinin başçısı cənab R.Hüseynov dedi ki, bu gün Azərbaycan güclü bir ölkəyə çevrilib, güclü ordusu var. Əlbəttə ki, qazanılan bütün nailiyyətlərin əsasında ulu öndər Heydər Əliyev tərəfindən müəyyənləşdirilən siyasi kurs və Prezident İlham Əliyevin bu siyasi kursu uğurla davam etdirməsi faktı dayanır. Bu günün fövqündən baxanda Azərbaycanın gələcəyi işıqlı və firavan görünür. Çünki müstəqil Azərbaycanın idarəçilik sükanı ulu öndər Heydər Əliyevin siyasi varisi cənab İlham Əliyevin əlindədir.

Eyni zamanda, Azərbaycanın beynəlxalq müstəvidə də nüfuzu artır, mövqeləri güclənir. Hesab edirəm ki, uğurlarımız davamlı olacaq. Biz Heydər Əliyev ideyaları işığında müstəqil Azərbaycanın möhtərəm Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə daha yüksək zirvələr fəth edəcəyinə əminik.

***

Masallı şəhərində bayram tədbiri axşam saatlarında Heydər Əliyev Parkında respublikanın tanınmış incəsənət ustaları Azərbaycan Dövlət Akademik Musiqili Teatrının solisti, Azərbaycan Dövlət Mədəniyyət İncəsənət Universitetinin müəllimi, Əməkdar artist Səidə Şərifəliyeva və müğənni İzzət Bağırov, Azərbaycan Dövlət Mədəniyyət İncəsənət Universitetinin tələbəsi Fidan Həmzəyeva və Nəzakət Veysəlova, Masallı Rayon Mədəniyyət Mərkəzinin solistləri Atamoğlan Zahidov, Şamo İbayev, Miriş Hüseynov, Məlahət Əzizli, Firudin Səfərov, Ruslan Zahidov, baletmestr Gündüz Babayev, "Halay" folklor və "Masallı" rəqs kollektivlərinin iştirakı etdiyi rəngarəng konsert proqramı ilə davam edib.

**Qeyd edək ki, möhtəşəm bayram tədbirində Masallının bütün ictimaiyyət nümayəndələri iştirak ediblər.**

**Əlihüseyn Şükürov.**
**MASALLI.**

Ədalət.-2019.-19 iyun.-S.5.